# 248 "Dövlət əmlakının (mənzil fondundan başqa) icarəyə verilməsi üçün icarə haqqının minimum məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 5 mart tarixli, 34 nömrəli qərarına dəyişiklik edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 5 mart tarixli, 34 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət əmlakının (mənzil fondundan başqa) icarəyə verilməsi üçün icarə haqqının minimum məbləği"ndə icarə haqqı tarifi cədvəli aşağıdakı yeni redaksiyada verilsin:

**manatla**

| № | Qeyri-yaşayış sahəsinin təyinatı | 1 m² sahənin illik icarə haqqı tarifi | | | |
|---|---|---|---|---|---|
| | | Bakı şəhəri ərazisində yerləşən sahələr üzrə | | Respublikanın digər şəhər və rayonlarında yerləşən sahələr üzrə | |
| | | 1-ci və yuxarı mərtəbə | Zirzəmi, yarımzirzəmi, çardaq | 1-ci və yuxarı mərtəbə | Zirzəmi, yarımzirzəmi, çardaq |
| 1. | Büdcə vəsaiti hesabına maliyyələşdirilən müəssisələrin, incəsənət və mədəniyyət obyektlərinin, yaradıcılıq emalatxanalarının, sənətkarların icarəsindəki sahələr* | 6000 | 4000 | 3000 | 2000 |
| 2. | İctimai və siyasi təşkilatlar, dini və xeyriyyə təşkilatları, əmtəə birjaları, təhsil, səhiyyə, idman və istehsal təyinatlı sahələr | 10000 | 7000 | 5000 | 3500 |
| 3. | Poçt xidməti və kütləvi informasiya fəaliyyəti məqsədi ilə icarəyə götürülən sahələr | 19000 | 13000 | 10000 | 7000 |
| 4. | Kitab mağazalarının icarəsindəki sahələr | 6000 | 4000 | 3000 | 2000 |
| 5. | Kommersiya, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin icarəsindəki sahələr və 1-4-cü bəndlər üzrə əgər sahədən təyinatı üzrə istifadə edilməzsə | 19000 | 13000 | 10000 | 7000 |

* Sənətkarlara və yaradıcılıq emalatxanalarında fəaliyyət göstərən icarəçilərə bu qrup üzrə icarə haqqı Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi və yaradıcılıq ittifaqları tərəfindən verilmiş müvafiq sənəd əsasında müəyyən edilir.

| | | | | | |
|---|---|---|---|---|---|
| 6. | Xarici səfirliklərin, diplomatik nümayəndəliklərin icarəyə götürdüyü sahələr | 150000 | 100000 | 45000 | 30000 |
| 7. | Nizamnamə kapitalında xarici investorların payı 50 faiz və daha çox olan müəssisələrin, tamamilə xarici investorlara məxsus olan müəssisələrin, xarici hüquqi şəxslərin filialları və nümayəndəliklərinin və xarici fiziki şəxslərin qeyri-istehsal məqsədi ilə icarəyə götürdüyü sahələr | 30000 | 20000 | 15000 | 10000 |
| 8. | Nizamnamə kapitalında xarici investorların payı 50 faiz və daha çox olan müəssisələrin, tamamilə xarici investorlara məxsus olan müəssisələrin, xarici hüquqi şəxslərin filialları və nümayəndəliklərinin və xarici fiziki şəxslərin istehsal məqsədi ilə icarəyə götürdüyü sahələr | 20000 | 14000 | 10000 | 5000 |

2. Qərara əlavədə zona əmsalları müəyyən edildikdən sonra 4-cü abzasda "İcarə haqqı tarifi cədvəlindəki" sözlərindən sonra "1, 2, 3, 6, 7, 8 və 11-ci qrupa daxil olan sahələr" sözləri "1, 2, 3 və 8-ci qrupa daxil olan sahələr" sözləri ilə əvəz edilsin.

3. Bu qərarın əlavəsində axırıncı abzasdan əvvəl aşağıdakı məzmunda abzas əlavə edilsin:

"Müəyyən edilsin ki, "Azərbaycan Respublikasında dövlət əmlakının icarəyə verilməsi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 19 avqust tarixli Fərmanına uyğun olaraq icarə haqqının müvafiq hissəsi icarəçi tərəfindən bilavasitə icarəyə verilən daşınmaz əmlakı balansında saxlayan müəssisəyə ödənilir."

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 27 mart 2000-ci il
№ 60

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 31 mart, № 3.- S. 1445-1446.